# TEACHING THE ARMENIAN LANGUAGE IN THE AZERBAIJANI EDUCATIONAL SYSTEM: A SCIENTIFIC-THEORETICAL APPROACH

**Alkhan Ismayilov**[1]

**UDC:** 811.19:37.02(479.24)
**LBC:** 81.51:74.026
**HoS:** 174
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.289-296

**Keywords:**

Armenian language, Language teaching, Azerbaijani educational system, Post-war period, Regional languages

**Subject area:**

Humanitarian Sciences

**Research field:**

Philology

## ABSTRACT

This article examines the scientific-theoretical foundations, stages of historical development, and methodological features of teaching the Armenian language within the Azerbaijani educational system. The research substantiates that language instruction is not merely a linguistic process but a complex phenomenon intertwined with social, cultural, and political contexts. Particular emphasis is placed on analyzing the functional, analytical, and strategic significance of learning the Armenian language against the backdrop of the new geopolitical realities forming in the South Caucasus region, especially during the post-war period. The article reviews communicative, comparative, and contextual teaching approaches, evaluates the role of digital technologies and innovative educational tools in this field, and assesses the functional and strategic importance of teaching the Armenian language in light of the new realities established in the region since 2020.

The study demonstrates that although the teaching of the Armenian language is conducted on a limited scale within the Azerbaijani educational system, it exists as an important scientific direction in higher education and research environments. The instruction of the language serves not only to develop philological knowledge but also to foster intercultural dialogue, deepen the understanding of regional processes, and strengthen analytical skills within the information environment. The article examines both historical sources and contemporary educational strategies in a comparative manner, and puts forward proposals for the improvement of the pedagogical process. In conclusion, the teaching of the Armenian language is evaluated as a promising field from both academic and strategic perspectives, and its development creates additional opportunities for regional cooperation and scientific integration.

[1] Lecturer at the National Defense University; Baku, Azerbaijan
E-mail: ismayilov.alxan@gmail.com
https://orcid.org/0009-0000-5941-2884

**To cite this article:** Ismayilov, A. [2026]. Teaching the Armenian Language in the Azerbaijani Educational System: a Scientific-Theoretical Approach. *History of Science journal*, *7*(2), pp.289-296.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.289-296

***Article history:***
*Received: 30 December 2025*
*Revised: 30 January 2026*
*Accepted: 1 June 2026*
*Published: 15 June 2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# AZƏRBAYCAN TƏHSİL SİSTEMİNDƏ ERMƏNİ DİLİNİN TƏDRİSİ: ELMİ-NƏZƏRİ YANAŞMA

**Alxan İsmayılov**[1]

**UOT:** 811.19:37.02(479.24)
**KBT:** 81.51:74.026
**HoS:** 174
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.289-296

**Açar sözlər:**

Erməni dili,
Dil tədrisi,
Azərbaycan təhsil sistemi,
Post-müharibə dövrü,
Region dilləri

**Sahə:**

Humanitar elmlər

**Tədqiqat sahəsi:**

Filologiya

**ANNOTASİYA**

Bu məqalədə Azərbaycan təhsil sistemində erməni dilinin tədrisinin elmi-nəzəri əsasları, tarixi inkişaf mərhələləri və metodoloji xüsusiyyətləri araşdırılır. Tədqiqatda dil tədrisinin yalnız linqvistik proses kimi deyil, həm də sosial, mədəni və siyasi kontekstlərlə bağlı kompleks fenomen olduğu əsaslandırılır. Xüsusilə post-müharibə dövründə Cənubi Qafqaz regionunda formalaşan yeni geosiyasi reallıqlar fonunda erməni dilinin öyrənilməsinin funksional, analitik və strateji əhəmiyyəti təhlil edilir. Məqalədə kommunikativ, müqayisəli və kontekstual tədris yanaşmaları nəzərdən keçirilir, həmçinin rəqəmsal texnologiyaların və innovativ tədris vasitələrinin bu sahədə rolu, eyni zamanda, 2020-ci ildən sonra regionda formalaşan yeni reallıqlar fonunda erməni dilinin tədrisinin funksional və strateji əhəmiyyəti qiymətləndirilir.

Araşdırmada göstərilir ki, erməni dilinin tədrisi Azərbaycan təhsil sistemində məhdud miqyasda həyata keçirilsə də, ali təhsil və elmi-tədqiqat mühitində mühüm elmi istiqamət kimi mövcuddur. Dilin öyrədilməsi yalnız filoloji biliklərin formalaşdırılmasına deyil, həm də mədəniyyətlərarası dialoqun inkişafına, regional proseslərin daha dərindən anlaşılmasına və informasiya mühitində analitik bacarıqların gücləndirilməsinə xidmət edir. . Məqalədə həm tarixi mənbələr, həm də müasir təhsil strategiyaları müqayisəli şəkildə nəzərdən keçirilir, tədris prosesinin təkmilləşdirilməsi istiqamətində təkliflər irəli sürülür. Nəticə etibarilə, erməni dilinin tədrisi həm akademik, həm də strateji baxımdan perspektivli sahə kimi qiymətləndirilir və onun inkişafı regional əməkdaşlıq və elmi inteqrasiya üçün əlavə imkanlar yaradır.

[1] Milli Müdafiə Universitetinin müəllimi; Bakı, Azərbaycan
E-mail: ismayilov.alxan@gmail.com
https://orcid.org/0009-0000-5941-2884

**Məqaləyə istinad:** İsmayılov, A. [2026]. Azərbaycan Təhsil Sistemində Erməni Dilinin Tədrisi: Elmi-Nəzəri Yanaşma. *History of Science jurnalı*, *7*(2), səh.289-296.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.289-296

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 30.12.2025*
*Yenidən baxılıb: 30.01.2026*
*Təsdiqlənib: 01.06.2026*
*Dərc olunub: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ПРЕПОДАВАНИЕ АРМЯНСКОГО ЯЗЫКА В ОБРАЗОВАТЕЛЬНОЙ СИСТЕМЕ АЗЕРБАЙДЖАНА: НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ ПОДХОД

**Алхан Исмайлов**[1]

**УДК:** 811.19:37.02(479.24)
**ББК:** 81.51:74.026
**HoS:** 174
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.289-296

**Ключевые слова:**

Армянский язык, Преподавание языка, Образовательная система Азербайджана, Поствоенный период, Региональные языки

**Область исследования:**

Гуманитарные науки

**Научная область:**

Филология

## АННОТАЦИЯ

В данной статье исследуются научно-теоретические основы, этапы исторического развития и методологические особенности преподавания армянского языка в образовательной системе Азербайджана. В исследовании обосновывается, что преподавание языка является не только лингвистическим процессом, но и сложным феноменом, связанным с социальным, культурным и политическим контекстами. Особое внимание уделяется анализу функциональной, аналитической и стратегической значимости изучения армянского языка на фоне новых геополитических реалий, формирующихся в регионе Южного Кавказа, особенно в поствоенный период. В статье рассматриваются коммуникативные, сравнительные и контекстуальные подходы к преподаванию, оценивается роль цифровых технологий и инновационных образовательных инструментов в этой области, а также оценивается функциональное и стратегическое значение преподавания армянского языка на фоне новых реалий, сложившихся в регионе после 2020 года.

В исследовании показано, что, хотя преподавание армянского языка осуществляется в ограниченном масштабе в рамках образовательной системы Азербайджана, оно существует как важное научное направление в сфере высшего образования и научно-исследовательской деятельности. Преподавание языка служит не только формированию филологических знаний, но и развитию межкультурного диалога, более глубокому пониманию региональных процессов и усилению аналитических навыков в информационной среде. В статье в сравнительном аспекте рассматриваются как исторические источники, так и современные образовательные стратегии, выдвигаются предложения по совершенствованию учебного процесса. В результате преподавание армянского языка оценивается как перспективное направление как с академической, так и со стратегической точек зрения, и его развитие создает дополнительные возможности для регионального сотрудничества и научной интеграции.

[1] Преподаватель Национального университета обороны; Баку, Азербайджан
E-mail: ismayilov.alxan@gmail.com
https://orcid.org/0009-0000-5941-2884
**Цитировать статью:** Исмайлов, А. [2026]. Преподавание армянского языка в образовательной системе Азербайджана: научно-теоретический подход. *Журнал History of Science*, *7*(2), с.289-296.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.289-296

***История статьи:***
*Поступила: 30.12.2025*
*Переработана: 30.01.2026*
*Принята: 01.06.2026*
*Опубликована: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Cənubi Qafqaz regionu tarixi, etnik və mədəni müxtəlifliyi ilə seçilir və Azərbaycanla Ermənistan arasında münasibətlər bu coğrafiyanın siyasi dinamikasının əsas elementlərindən biridir. Münaqişə və diplomatik gərginliklərə baxmayaraq, tərəflər arasındakı əlaqələrin mədəni, tarixi və informasiya komponentləri tamamilə kəsilməmişdir. Post-müharibə dövründə yaranan yeni reallıqlar isə dil tədrisinə yanaşmada funksional və praqmatik istiqamətin güclənməsini zəruri edir.

Bu baxımdan, erməni dilinin öyrənilməsi yalnız linqvistik maraq sahəsi deyil, həm də regionun tarixi kontekstini anlamaq, ictimai reallıqları təhlil etmək və diplomatik proseslərdə daha çevik mövqe formalaşdırmaq baxımından strateji əhəmiyyət daşıyır.

Azərbaycan Respublikasının çoxmillətli və çoxmədəniyyətli quruluşu təhsil siyasətində dil müxtəlifliyinin qorunmasını və inkişaf etdirilməsini zəruri edir. Bununla da region xalqlarının dillərinin öyrənilməsi yalnız akademik deyil, həm də sosial və strateji əhəmiyyət kəsb edir [Azərbaycan Respublikası, 2013].

2020-ci il İkinci Qarabağ Müharibəsindən sonra Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallıqlar erməni dilinin tədrisinə baxışı köklü surətdə dəyişmişdir. Azərbaycanın ərazi bütövlüyünün bərpası və regionda kommunikasiyaların açılması perspektivi bu dilin həm strateji analiz, həm də gələcək reinteqrasiya prosesləri üçün öyrənilməsini zəruri edir.

Məqalənin məqsədi - Azərbaycan təhsil sistemində erməni dilinin tədrisinin elmi əsaslarını, metodoloji prinsiplərini və real vəziyyətini araşdırmaqdır.

## 2.Erməni dilinin tədrisinin tarixi və hüquqi əsasları

Erməni dili Qafqaz regionunun qədim dillərindən biri olaraq, Azərbaycan ərazisində əsrlər boyu etnik qruplar tərəfindən istifadə edilmişdir. Erməni dilinin tədrisi Azərbaycanda müxtəlif tarixi mərhələlərdə dəyişən formalarda mövcud olmuşdur. Azərbaycan təhsil sistemində erməni dilinin tədrisi sovet dövründə müəyyən mərhələlərdən keçmişdir. SSRİ-nin dil siyasəti çərçivəsində respublikalararası əməkdaşlıq və mədəni inteqrasiya nəticəsində erməni dili bəzi ali məktəblərdə fakültativ və ya ixtisas dili kimi tədris olunurdu. Müstəqillik dövründə siyasi reallıqlar bu sahəyə birbaşa təsir göstərmişdir.

Müstəqillik dövründə bu istiqamət əsasən elmi-tədqiqat və regional filologiya səviyyəsində saxlanılmışdır. Azərbaycan Respublikasının Təhsil Qanununa görə, ölkə ərazisində yaşayan milli azlıqların dillərinin tədrisinə şərait yaradılır. Bu hüquqi baza erməni dilinin tədrisi üçün də nəzəri imkan yaradır [Azərbaycan Respublikasının Qanunu, 2009].

## 3.Elmi-nəzəri əsaslar və metodoloji yanaşmalar

Erməni dili Hind-Avropa dilləri ailəsinin Qafqazda inkişaf etmiş müstəqil qolu hesab olunur. Dilin struktur xüsusiyyətləri, fonetikası, morfologiyası və sintaksisi Azərbaycan türkcəsi ilə həm oxşar, həm də fərqli cəhətlərə malikdir [Movsisyan, 2012].

Erməni dilinin tədrisi dilçilik, psixolinqvistika və metodika elmlərinin kəsişməsində tədqiq olunur.

Elmi əsaslar aşağıdakı istiqamətləri əhatə edir:

- Kommunikativ yanaşma: Tədrisin məqsədi sadəcə qrammatika deyil, ünsiyyət bacarıqlarının formalaşdırılması olmalıdır.
- Müqayisəli tədris metodu: Azərbaycan və erməni dillərinin struktur oxşarlıqları və fərqlərinin müqayisəsi öyrənmə prosesini asanlaşdırır.
- Kontekstual öyrənmə: Dil öyrənilməsi zamanı mədəni, tarixi və ədəbi kontekstdən istifadə öyrənməni dərinləşdirir.
- İnnovativ texnologiyalar: Rəqəmsal platformalar, audio-vizual materiallar və süni intellekt əsaslı proqramlar erməni dilinin müasir tədrisində effektiv vasitədir.

**4.Siyasi və mədəni kontekstin tədrisə təsiri**

Azərbaycan təhsil sistemində erməni dilinin tədrisi yalnız dil öyrənilməsi prosesi kimi deyil, həm də spesifik siyasi və mədəni kontekstlərlə əlaqəli yanaşma tələb edən sahədir. Azərbaycan–Ermənistan münasibətləri uzun illər boyu gərgin olaraq qaldığından, təhsildə bu dilin öyrədilməsi çox vaxt emosional və ictimai həssaslıq yaradan mövzuya çevrilir. Buna görə də tədris prosesində neytrallıq, akademik obyektivlik və mədəni hörmət prinsipləri əsas metodoloji baza kimi qəbul edilməlidir.

Bir çox beynəlxalq təcrübələr göstərir ki, konflikt yaşayan regionlarda dil tədrisi mədəni diplomatiya vasitəsi kimi çıxış edə bilər. Erməni dilinin öyrədilməsi, konflikt sonrası mərhələdə mədəni identitetlərin anlaşılması və regionda kommunikasiyanın inkişafı üçün potensial alətlərdən biridir. Dil öyrənən tələbə yalnız lüğət və qrammatika deyil, həm də erməni mədəniyyətinin tarixi, folkloru və ədəbiyyatına obyektiv və elmi yanaşma ilə tanış ola bilər. Bu, stereotiplərin azalmasına, tərəflər arasında real faktlara əsaslanan biliklərin formalaşmasına təkan verir.

Bununla yanaşı, tədris prosesində siyasi neytrallığın qorunması vacibdir. Müəllimlərin təlimində xüsusi sosial-psixoloji hazırlıq olmalıdır ki, mövzuların ideologiyalaşdırılması və ya emosional yüklənməsi baş verməsin. Tədris prosesi akademik dəyərlərə uyğunlaşdırıldığı halda, erməni dilinin tədrisi mədəni dialoqa müsbət töhfə verə bilər [Cabbarlı, 2015].

**5.Təhsil sistemində mövcud vəziyyət**

Erməni dilinin təkcə filoloji deyil, həm də milli təhlükəsizlik və informasiya müharibəsi kontekstindəki rolunu vurğulamaq lazımdır.

Hazırda Azərbaycanda erməni dili əsasən aşağıdakı istiqamətlərdə tədris olunur:

- *Ali təhsil müəssisələrində:* Bakı Dövlət Universiteti, Dillər Universiteti və digər ali məktəblərdə Qafqaz xalqları dilləri üzrə ixtisaslarda.
- *Elmi-tədqiqat institutlarında:* Erməni filologiyası və Qafqazşünaslıq üzrə tədqiqatlar aparılır.
- *Fərdi və akademik səviyyədə:* Tədqiqatçılar, dilçilər və tərcüməçilər tərəfindən öyrənilir.
- *İnformasiya məkanı:* Erməni dilindəki resursların birbaşa izlənilməsi və dezinformasiya ilə mübarizədə dil biliklərinin rolu.
- *Dövlət strukturları:* Müvafiq qurumlarda (məsələn, xüsusi xidmət orqanları, monitorinq mərkəzləri) peşəkar kadr hazırlığına tələbatın artması.

Bununla yanaşı son illərdə erməni dili üzrə bir sıra dərslik və proqramlar hazırlanıb:

| **Mənbə** | **İli** | **Xüsusiyyətləri** |
|---|---|---|
| *“Erməni dili fənni üzrə tədris proqramı”* [Azərbaycan Dillər Universiteti, Təhsil Problemləri İnstitutu, 2015] | 2015 | 140 səhifəlik proqram, ali məktəblər üçün nəzərdə tutulub |
| *“Erməni dili – Dərslik”* [Alıyev, 2019] | 2019 | 492 səhifəlik geniş dərs vəsaiti, fonetika, morfologiya, sintaksis və praktiki çalışmalar |
| *“Erməni dili: müstəqil öyrənmək üçün dərs vəsaiti”* [Cabbarlı, 2020] | 2020 | 496 səhifəlik geniş dərs vəsaiti, fonetika, morfologiya, sintaksis və praktiki çalışmalar |
| *Müxtəlif elmi məqalələr və konfrans materialları* | 2022-2025 | Regional dillərin tədrisi, mədəni diplomatiya və postmüharibə dövründə |

| | | |
|---|---|---|
| | | humanitar əməkdaşlıq mövzularını əhatə edir. |

Məktəb səviyyəsində sistemli tədris hazırda məhdud olsa da, *elmi-tədris potensialı və mədəni araşdırma* yönümü qorunur.

**6.Postmüharibə dövrünün təsiri**

• *2020-ci il Vətən müharibəsindən sonra* Azərbaycan və Ermənistan arasında münasibətlərdə yeni mərhələ formalaşır. Bu, təhsil sahəsində də özünü göstərir.

• *2025–2026-cı tədris ilindən* Ermənistanda bir neçə məktəbdə Azərbaycan dilinin tədrisi planlaşdırılır. Bu, qarşılıqlı humanitar diplomatiyanın başlanğıcı kimi dəyərləndirilir [Tert.am, 2025].

• Azərbaycan tərəfdə erməni dilinin tədrisi hazırda yalnız ali məktəblərdə və elmi-tədqiqat institutlarında mövcuddur. Məktəb səviyyəsində geniş tətbiq olunmur, lakin *postmüharibə dövründə mədəni dialoq və etimadın bərpası üçün potensial sahə* kimi müzakirə edilir.

**7.Reinteqrasiya və humanitar aspekt**

2020-ci il zəfərindən sonra *"Erməni dilinin reinteqrasiya prosesindəki rolu"* artıq sadəcə akademik maraq obyekti deyil, həm də praktik zərurətə çevrilmişdir. Bu, xüsusilə aşağıdakı istiqamətlərdə özünü büruzə verir:

- *Strateji Kommunikasiya:* Ermənistan daxilindəki ictimai-siyasi prosesləri birinci mənbədən izləmək və Azərbaycan həqiqətlərini erməni dilli auditoriyaya çatdırmaq.
- *Mülki İnteqrasiya:* Azərbaycanın konstitusion quruluşunun bütün ərazilərdə bərpası ilə əlaqədar olaraq, erməni dilli vətəndaşlarla hüquqi və sosial müstəvidə dialoqun qurulması, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin ölkənin hüquqi-siyasi məkanına reinteqrasiyası zamanı dilin ünsiyyət vasitəsi kimi əhəmiyyəti.
- Dövlət qurumlarının (polis, tibb, sosial xidmət) həmin ərazilərdə fəaliyyəti zamanı yerli əhali ilə effektiv kommunikasiya qurmaq üçün dil bilən kadrlara ehtiyacı.

**8.Tədrisin problemləri və perspektivləri**

***8.1.Problemlər:***

- Ədəbiyyat və dərslik çatışmazlığı
- Tədris resurslarının məhdudluğu
- İctimai-siyasi münasibətlərdən irəli gələn çətinliklər
- Təlimçi (müəllim) çatışmazlığı
- Elmi-tədqiqat bazasının məhdudluğu

***8.2.Perspektivlər:***

- Qafqaz xalqları dillərinin müqayisəli tədrisi üzrə yeni proqramların hazırlanması
- Rəqəmsal tədris platformalarının istifadəsi, innovativ yanaşmalar və rəqəmsal texnologiyaların tətbiqi
- Tərcüməçilik və regional tədqiqatlarda erməni dilinə olan marağın artması
- Dilin öyrədilməsi vasitəsilə region xalqları arasında mədəni və elmi əlaqələrin genişlənməsi

**9.Elmi nəticələr və təkliflər**

1. Erməni dilinin tədrisi Azərbaycan elmi və təhsil sistemində *regional dillərin öyrənilməsinə dair elmi yanaşmanın* bir hissəsi kimi qorunmalıdır.
2. Azərbaycan dilinin bazasında erməni dilinin öyrədilməsi üçün yeni *müqayisəli metodik vəsaitlər* hazırlanmalıdır.
3. Tədris yalnız dil biliklərinin verilməsi deyil, həm də *mədəniyyətlərarası ünsiyyətin formalaşdırılması* istiqamətində qurulmalıdır.

4. Bu sahədə *elmi əməkdaşlıqlar* (məsələn, Qafqaz dilləri üzrə beynəlxalq konfranslar, müştərək layihələr) genişləndirilməlidir.
5. Erməni dilinin tədrisində artıq *"Düşmən dili"* anlayışından *"Region dili"* və ya *"Qonşu dili"* anlayışına keçid elmi-metodik işlərdə özünü göstərməlidir.
6. Postmüharibə dövründə erməni dilinin tədrisi yalnız dil öyrənmə deyil, həm də sülh və diplomatiya aləti kimi nəzərdən keçirilməlidir.
7. Yeni dərsliklər və proqramlar hazırlanmalı, mövcud ədəbiyyat bazası genişləndirilməlidir.
8. Elm və Təhsil Nazirliyi bu prosesi *qarşılıqlılıq prinsipi* əsasında izləməli və dəstəkləməlidir.

**10.Nəticə**

Erməni dilinin tədrisi məsələsi Azərbaycan təhsil sistemində sırf dil öyrənmə məsələsi, deyil, həm də *elmi, mədəni və humanitar dəyər* daşıyan istiqamət, strateji əhəmiyyətə malik sahədir. Dilin öyrənilməsi həm də mədəniyyətlərarası dialoqun bərpası, qarşılıqlı anlaşmanın gücləndirilməsi, regionun siyasi-mədəni sisteminin anlaşılması və milli maraqların müdafiəsi baxımından da əhəmiyyətlidir. Bu istiqamətin inkişafı regional sabitlik və mədəni qarşılıqlı anlaşmaya kommunikasiya imkanlarının və gələcək əməkdaşlıq perspektivlərinin genişlənməsinə xidmət edə bilər.

Elmi-nəzəri yanaşma göstərir ki, erməni dilinin öyrədilməsi təkcə keçmişlə bağlı deyil, həm də *gələcəkdə elmi və diplomatik əlaqələrin formalaşmasında* mühüm rol oynaya bilər.

Erməni dilinin tədrisi Azərbaycan cəmiyyətində həm bilik mübadiləsini, həm də mədəni empatiyanı stimullaşdıra bilər. Bu isə uzunmüddətli perspektivdə regional sabitlik və sülh təşəbbüslərinə müsbət təsir göstərə biləcək amillərdən biridir. Beləliklə, mövzunun elmi-nəzəri və metodoloji baxımdan araşdırılması Azərbaycan təhsil sisteminin humanitar inkişaf istiqamətlərindən biri kimi aktuallığını qoruyur.

**11.REFERENCES**


**1.** Aliyev, A. (2019). *Armenian language (Textbook).* Baku. (in Azerbaijani)
**2.** Law of the Republic of Azerbaijan. (2009). *On education.* Baku. (in Azerbaijani)
**3.** Jabbarli, H. (2020). *Armenian language: Independent learning and teaching manual.* Baku. (in Azerbaijani)
**4.** Republic of Azerbaijan. (2013). *State Strategy for the Development of Education in the Republic of Azerbaijan.* Baku. (in Azerbaijani)
**5.** Movsisyan, L. (2012). *Azerbaijani language textbook.* Yerevan. (in Azerbaijani)
**6.** Azerbaijan Republic Institute of Education Problems, & Azerbaijan University of Languages. (2015). *Curriculum on the Armenian language subject* (H. Asgarov, comp.; S. Hasanov, ed.). Baku: N Print Studiya MMC, 140 p. Retrieved from https://www.preslib.az/az/book/qgZatxlfH91V0Og (in Azerbaijani)
**7.** Jabbarli, H. Q. (2015). *Armenian language.* Strategic Research Center under the President of the Republic of Azerbaijan. Baku: Aston-Print, 228 p. Retrieved from https://www.preslib.az/az/book/cihmmQlrDny6mWP (in Azerbaijani)
**8.** Tert.am. (2025, November 1). *This year, Azerbaijani language is being taught in 3 public schools of Armenia.* Yerevan. Retrieved from http://tert.am/en/news/2025/11/01/scholl/4248629 (in English)


**ƏDƏBİYYAT**


**1.** Alıyev, A. (2019). *Erməni dili* (Dərslik). Bakı.
**2.** Azərbaycan Respublikasının Qanunu. (2009). *Təhsil haqqında*. Bakı.
**3.** Cabbarlı, H. (2020). *Erməni dili: müstəqil öyrənmə və tədris vəsaiti*. Bakı.

4. Azərbaycan Respublikası. (2013). *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası*. Bakı.
5. Movsisyan, L. (2012). *Azərbaycan dili dərsliyi*. Yerevan.
6. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, & Azərbaycan Dillər Universiteti. (2015). *Erməni dili fənni üzrə tədris proqramı* (H. Əsgərov, tərt.; S. Həsənov, red.). Bakı: N print studiya MMC, 140 s. Retrieved from https://www.preslib.az/az/book/qgZatxlfH91V0Og
7. Cabbarlı, H. Q. (2015). *Erməni dili*. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı: Aston-Print, 228 s. Retrieved from https://www.preslib.az/az/book/cihmmQlrDny6mWP
8. Tert.am. (2025, Noyabr 1). *This year, Azerbaijani language is being taught in 3 public schools of Armenia*. Yerevan. Retrieved from http://tert.am/en/news/2025/11/01/scholl/4248629